Uşaq ədəbiyyatının böyüklüyü

Xəbər verildiyi kimi, aprelin 5-də AYB-nin Natəvan klubunda uşaq ədəbiyyatı üzrə müzakirələr keçirildi. Tədbiri Yazıçılar Birliyinin gənclər üzrə katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid açdı. Sonra şair Qəşəm Nəcəfzadə "Sahifələr" adlı məruzə ilə çıxış etdi (məruzə dərc olunur).

Məruzə ətrafında çıxış edən şair Qulu Ağsas məruzənin ədəbi-bədii, esseist məqamlarının əlmiliklə bir arada taqdim olunduğunu, orijinallığı ilə seçildiyini vurğuladı. Bildirdi ki, məruzə maraqlı bir süjet xətti ətrafında qurulub. Bu süjeti Qəşəm özünün bir şerindən götürüb. Həmin xəttin ahatəsində çağdaş uşaq şeri, dramaturgiya və dərsliklərimizin vəziyyəti ətraflı şəkildə çözülüb... Ancaq Qəşəm xalq yazıçısı Elçinin "525-ci qəzet"də dərc olunan silsilə nağıllarından bəhs edərkən dedi ki, bu nağıllar həm uşaqlar, həm də böyüklər üçündü. Hesab edirəm Elçinin nağılları uşaqlar üçün yox, böyüklər üçün yazılıb... Məruzədəki bəzi ifadələr dəqiqləşdirilməlidi".

Tanınmış şair İlyas Tapdıq məruzənin əhatəli olduğunu qeyd etdi, burada uşaq ədəbiyyatı probleminin dolğun təhlilinin verildiyini bildirdi.

Professorlar Zahid Xəlil, Rafiq Yusifoğlu, şair və yazıçılardanƏləmdar Quluzadə Sevinc Nuruqızı, Gülzar İbrahimova, Fərqanə, Adil Cəmil, Balayar Sadiq, Xəramət Böyükçöl də məruzənin əhatəli və dolğun olduğunu qeyd etdilər.

Tənqidçi Əsəd Cahangir çıxışında məruzənin dərsliklər bölümünün əhatəli olduğunu, lakin qalan bölümlərin belə dolğun da'am etmədiyini ön çəkdi. İrad tutdu ki, məruzədə Fikrət Sadıqdan eyni zamanda da uşaq şairi kimi bəhs edilməsi doğru deyil, bu, onu kiçildir.

Xalq yazıçısı, AYB-nin sədri Anar, xalq şairi AYB-nin birinci katibi Fikrət Qoca çıxış edərək məruzənin məziyyətlərindən danışdılar, çıxışçının uşaq ədəbiyyatına yaxından bələd olmasını təqdir etdilər.

Sonra Q.Nəcəfzadə söylənilən fikirlərə münasibətini bildirdi: Sübuta ehtiyac yoxdu ki, uşaq ədəbiyyatı yaratmaqla da böyük şair, yazıçı olmaq olar. Mənim uşaq ədəbiyyatı nümunələrinə münasibətim əslində məruzənin öz içindədi, nəticə çıxarmağı oxucuların ixtiyarına vermişəm".

S.Aranlı

Səhifələr

Uşaq ədəbiyyatındakı uşaq haqqında

İndi əlimdə 15 vərəq var, son beş ilin günləri vərəqləri qaralaybı ki, üzümüzü ağarda bilsin. Birinci vərəqdi bu, birinci səhifə.

Oxuyuram...

1993-cü il... Bakı məktəblərinin biri... Mənə dərs demək üçün 8[a] sinfini verirlər. Qacqın uşaqlandı... Jurnalın sonuncu səhifəsindəki şagirdlər haqqında məlumatı oxumaq mənə maraqlıdı. Oxuyuram. Əksəriyyətinin atası şəhid... Bəzilərinki işsiz... Bu, bütöv Azərbaycan cəmiyyətinin şəkli, müharibənin canlı şeridir. Bu, öz yerində... Müəllimlərdən biri mənə deyir, direktoru vaxtında görsəydin, sənə müəntiqlərin uşaqları oxuduğu sinfi verərdi. Bu söz 8[a] sinif jurnalının arxasındakı yazıdan daha ağırdı. Kövrəldim. "8[a] sinif jurnalının arxasında yazı" şerimi yazdım. Bu şeir o vaxt ki, Azərbaycan cəmiyyətinin sifətini çox dəqiq göstərir.

Başqa bir fakt. 80-ci illərin ortalarında dərs dediyim 6-cı sinfə "Haradan başlanır, vətən" mövzusunda inşa yazdırmam. İnşadan "5" alan şagirdim Qarabağ döyüşlərində fərari olur, "2" qiymət verdiyim şagird isə qəhrəmanlığı göstərib "Azərbaycan bayrağı" ordeni ilə təltif edilir. Səbəbi?.. Bilmirəm. Bunları ona görə deyirəm ki, bu iki faktın bizim uşaq şerimizə çox böyük dəxli var.

Bu günlər ermənilər snayperlə 9 yaşlı Fariz Bədəlovu öz evlərinin qabağında alnından vurdular. Bir uşaq şerimiz də belə oldu. Bir uşaq şerimiz azaldı. Demək, nə qədər uşaq var, bir o qədər uşaq şeri...

Şair dostlarımdan biri danışır. Qış vaxtı evə gələndə gördüm ki, balaca qızım evin qapı-pəncərələrini tam açıb, bütün qızdırıcıları işə salıb. Sorusdum, nə edirsən? Dedi ki, çölü qızdırram, çöl qızsın, gedib çöldə oynayım. Bu, canlı bir uşaq şeridi. Nəfəs alır. Şeir dirilir.

Bəzən uşaq şeirlərimizdə belə dəqiq həyat faktları çatmır.

Yaxşısı budur, vərəqi çevirim... ikinci vərəq. Bu vərəqin əvvəlində üç nekroloq var, Mestan Günər, Xanımana, Əlibəyli, Əli Səmədli.

Yadıma Mestan Günərin aşağıdakı misraları düşür.

Otların üstündə ay çıxıb dizə

Demək, otların qucağında ayın işığı o qədərdi ki, ay dizə qədər qalxıb. Halbuki ay göydədir. Amma bu şeirdə ay otlardan uşaqlara baxır. Elə bil şəkil çəkilib.

Mestan Günər uşaq şeirlərinə görə ilk dövlət mükafatı alan şairdi.

Xanımana Əlibəylinin son illər "Seçilmiş əsərləri"nin iki cildliyi çap olundu.

Professor Rafiq Yusifoğlu yazır: "Xanımana Əlibəyli mələkələrin qanadında Tanrı dərgahına uçdu."

Əli Səmədli həmişə mənə görəndə deyirdi, uşaq kitabxanasında mənimlə görüş var, gəl. Əli Səmədli və uşaq kitabxanaları... Bakıda 18 uşaq kitabxanası var, birinin qapısında Əlinin şəklini asa bildikmi?

Bəli, bu beş ildə üç uşaq yazıçısını əbədiyyətə yola saldıq. Uşaqların xəbərə oldumu, bilmədim.

Vərəqin sonuna irəliləsəm də, xəyalım XX əsrin əvvəlinə qayıdır. "Dəbistan", "Məktəb" "Zənbur", "Rəhbər" jurnalları gözüm önündə vərəqlənir. Vərəqlər sarı, şeirlər dirı. M.Ə.Sabir, A.Şaiq, A.Səhhət, R.B.Əfəndiyev, M. Cəlil, Ü.Hacıbəyov, F.B.Köçərli fikrim önündən keçirlər. "Yaz günləri", "Uşaq və buz", "Dovşan", "Keçi", "Can gülüm, can-can", Durna", "Tülkü və qarğa" şeirlərini dodağımın altda pıçıldayıram. Şeirlərin dili sadə və aydın. Obrazın xarekteri darın və mənalı. "Yaz günləri" şeri təkçə təbiət hadisəsi deyil, həm də içtimai bir hadisədir. Şair "Gəl, gəl a yaz günləri" deyəndə həm də türk ellərini çağırır.

Bu vərəqi də qoyuram kənara. Yaşadığım dəqiqələrin ardınca vərəqi qapı kimi örtürəm.

Üçüncü vərəq... Sovet ədəbiyyatı adlandırdıqları vərəq. Amma böyük ədəbiyyatın vərəqi. Açıram.

Səməd Vurğun, Rəsul Rza, İlyas Əfəndiyev, Teymur Elçin, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Mirmehdi Seyidzadə, Əhməd Cəmil, Mikayıl Rzaquluzadə, Ənvər Məmmədxanlı, Özləm Gəfərzadə, Mir Cəlal, Xanımana Əlibəyli, Əli Kərim, Əziza Əhmədova, Bəxtiyar Vahabzadə, Əli Səmədli, Məstan Günər, Bayram Həsənov və b. görkəmli sənətkarlarımız elə bir uşaq ədəbi irsi qoyub getmişlər ki, onların əsərlərinə könül söykəməklə uşaq ədəbiyyatımızın taleyini müəyyənləşdirmək olar.

Elə bu adların ardınca bir söz yazmaq istəyirəm. Bizdən ayrı düşənlərə hörmət və ehtiramım böyükdü. Mən keçmişi çox sevirəm. Yaratdıqlarımızın hamısı keçmişdədi. Bax, elə bir dəqiqə önce dediyim söz də keçmiş oldu artıq. Hələ gələcəkdə nə var, bilmirəm. Maşhur bir sözdə deyildiyi kimi: "Keçmişə tapançа ilə atəş açsan, gələcək səni topa tutacaq".

50-60-cı illərdə Anar, Fikrət Qoca, Elçin, Fikrət Sadıq, İlyas Tapdıq, Nəriman Həsənzadə, Əkrəm Əylisli, Zahid Xəlil, Məmməd İsmayıl, Ayaz Vəfalı, Qərib Mehdi, Bahadur Ferman, Fəridə Əlyarbəyli, Məmməd Alim, Ələkbər Salahzadə, Qəşəm İsabəyli, Rafiq Yusifoğlu, Ələmdar Quluzadə, Alamzər Əlizadə, Şövkət Zərin Horovlu və başqa sənətkarlarımız dəyərli uşaq əsərləri yaratmış və bu gün də bəzilərі ardıcıl olaraq uşaq ədəbiyyatı ilə məşğuldular.



Uşaq ədəbiyyatının sonraki nəslinə mənsub olan İsmayıl İmanzadə, Əjdər Ol, Ədalət Əsgərоğlu, Azadə Taleh, Telman Dəmir, Zəmirə Xinali, İslam Sadıq, İnqilab İsaq, Sahib İbrahimli, Adil Cəmil, Sümuzər Nüsrətbəyli, Murad Köhnəqala, Məlahət Yusifqızı, Gülarə Munis, Gülamali Murad, Fəxrəddin Meydanlı, Ədalət Salman və onlardan sonra gələn nəsil - Sevinc Nuruqızı, Səlim Babullaoğlu, Gülzar İbrahimova, Hicran Hüseynova, Balayar Sadiq, Sərvəz Hüseynoğlu, Şəmsi Vəfadar, Aysel Xəlil, Nurana Nur, Əfsanə Laçın, Əkbər Qoşalı, Günel Almaz, Sevinc Arzulu, Aygün Bunyadzadə, Şəfəq Sahibli, Mənsurə Qaçaqqızı, Səxavət Talıbli, Vəfa Qafarova, Dayandur Sevgin, Sevinc Pərvanə, Nərıngül, Faiq Balabəyli, İradə Aytel son beş ildə çap olunan kitabları və şeirləri ilə ədəbi ictimaiyyatin nəzər-diqqətini cəlb etmişlər.

Müasir uşaq ədəbiyyatını 3 ədəbi növ üzrə - uşaq şeri, uşaq nəsri, uşaq ədəbi tənqidi ilə qruplaşdırmaq olar ki, mən bunu ayrı-ayrılıqda yox, bir yerdə araşdırmışam və burda da əsas məsələ kəmiyyət deyil, mənim üçün başlıca meyar, badilikdir. Badii həqiqət tarixi həqiqətdən çox yaşayır.

Məruzəmi fikrimdə 14 səhifə hacmində tutmuşdum və birdən-birə hardansa bir vərəq, gərək ki, "525-ci qəzet"dən uça-uça düz gəlib vərəqlərin ustünə düşdü. Bu o zaman oldu ki, mən xalq yazıçısı Elçinin hər şənbə "525-ci qəzet"də gedən və hələ də davam edən "Silsilə nağıllar"ını birməbirə oxuyurdum və gördürdüm ki, Elçinin o nağılları eyni zamanda uşaq ədəbiyyatının ən gözəl nümunələridi. Onu da fikrimdə təsdiqləyirdim ki, uşaq ədəbiyyatı ilə böyük ədəbiyyatı arasında elə böyük bir fərq də yoxdur. Onu da bilirdim ki, bu nağıllarda iri hərflə yazılan insan və təbiət münasibətləri üzdə olsa da, alt qatda, cəmiyyətdə, şüurda, milliləşmə və qloballaşmada gedən prosesləri dəqiqliyinə qədər göstərir. Mən indi Elçinin "Nağıllar silsiləsi"nin fövqündə dayanaraq son beş ilin uşaq ədəbiyyatının ədəbi mənzərəsinə dəqqətlə baxanda bir çox ədəbi hadisələri aydın görürəm. Həmin ədəbi hadisələrdən biri budur ki, ölkə Prezidenti tərəfindən 2009-cu il "Uşaq ili" elan olundu və bu qərardan sonra uşaq ədəbiyyatı ilə bağlı məsələlər gündəmə gəldi, dəyirmi masalar, görüşlər, konfranslar keçirildi.

Xalq yazıçısı Elçinin məsləhəti və nəmrhum Qoşqar Qarayevin layihəsi əsasında formalaşan, tənqidçi Nərgiz Cabbarlının rəhbərliyi ilə fəaliyyət gostərən "Beşik" nəşriyyatı balaca oxucuların bir-birindən maraqlı uşaq kitabları bağışladı.

2008-ci ilin noyabrində Bakıda Türk xalqları ədəbiyyatı Beynəlxalq uşaq ədəbiyyatı konqresi keçirildi. Türk xalqları uşaq ədəbiyyatının birgə müzakirəsi ədəbiyyatımıza böyük töhfələr verdi.

Dövrün ictimai-siyasi və sosial iqlimi uşaq ədəbiyyatına da təsir etdi, zamanın gərdişi balaca oxucuların oxu kitabında da öz atını mehərət ilə oynatdı.

Ən böyük ədəbi hadisələrdən biri baş vermədi, ona görə baş vermədi ki, uşaq ədəbiyyatı adına son beş ildə heç bir mükafat təsis edilmədi.

Ölkənin başında yeni kitablar, jurnal və qəzetlər çap edildi, maraqlı görüşlər, yubileylər, disbutlar keçirildi. Və onu da qeyd edirəm ki,"-Nağıllar silsiləsi"nin fövqündən baxanda uşaq ədəbiyyatının bir-birindən maraqlı, zəngin və parlaq səhifələri gözüm önündə vərəqlənir.

İlyas Tapdıq səhifəsi

Uşaq şerimizin canlı klassiki, 75 illiyini ötən İlqtəntənə ilə qeyd etdiyimiz İlyas Tabdığın əbədi zövqü həm keçmişi, həm bu günü, həm də gələcəyi ifadə edir. Müasirliyi olmayan insanı mən qoca hesab edirəm. İlyas Tapdıq bütün ədəbi düşüncələri ilə müasirdir.

Son beş ildə şairin "Seçilmiş əsərləri"nin iki cildliyi, "Şeir seven balalar", "Köşək", "Qoçaq dovşan", "Təqvimə düşən oğlan" kitabları işıq üzü görüb.

"Meşənin mahnısı", "Şüvəlanda" "Qoçaq dovşan", "Balaca ovçular" poemaları uşaq dünyasının daxili cizgilərini orijinal bir şəkildə göz önünə gətirir. Vaxtilə unudulmaz şairimiz Hüseyn Arif "Bənövşə" şerinə İlyas Tapdığın aşağıdakı iki misrasını epiqraf gətirmişdi.

Bənövşə xatirinə
Kol dibinə iz düşdü.

Və mən də balaca vaxtımda bütün kol-kosların dibində bənövşə axtarırdım.

Bir-birindən gözəl uşaq obrazları yaradan İlyas Tapdıq son illərdə balaca oxuculara Qarabağımız, bu günümüz haqqında maraqlı şeirlər yazdı. Mən onu yeriyən uşaq ədəbiyyatı və danışan xatirə kitabı adlandırmam və ötən bu payız gördüyüm bir mənzərə hələ də xəyalımdan çəkilmir. Sahil bağında küləkli bir havada san yarpaqlarla bir gedirdi İlyas Tapdıq. Yarpaqlar başından aşır, pencəyinin ətəklərini və kalustukunu külək havada yelləyir, o isə heç nəyin fərqinə varmadan elindəki çəlikə ayağının altında hələ ki, yerin qaçmadığını yoxlayırdı.

Burada bu vərəqi qatlayıram. Oxundu, bitdi. Ay kimi batdı, gün kimi çıxdı. Elimdə başqa bir vərəq var.

Səhifələr

Uşaq ədəbiyyatındakı uşaq haqqında

(Əvvəli ötən sayımızda)

Vaqif Bəhmənli abzası

Vaqif Bəhmənli səmimi şairdir. O qədər səmimidir ki, uşaqlar üçün şerini oxuyanda elə bilirsən böyüklər üçün yazıb, böyüklər üçün şeirləri oxuyanda elə bilirsən ki, uşaqlar üçündü. Vaqifin şeirləri oxucuya səmimiyyət körpüsündən keçir. Son beş ildə seçilmiş əsərləri çapdan çıxıb. Vaqif uşaqları da yaddan çıxarmayıb. Onlara "Qızıl qala" kitabını bağışlayıb.

Mahirə Abdulla abzası

Mahirə Abdullanın dövri mətbuatda romanlarını, povestlərini, hekayələrini, şeirlərini oxumuşam. Rəsmlərinə baxmışam. Uşaq şeirlərini oxuyanda heyrətləndim... Hə, indi bildim ki, Mahirə xanım yaradıcılığa uşaq şeirindən keçib gəlib. Ona xeyir-duanı uşaq şeri verib. Uşaq şeirlərinə şəkilləri də özü çəkib. Ümumiyyətlə, hamının içində bir uşaq var.

Baxır kim onu nəcə danışdırır. Məncə, Mahirə xanım uşaqları danışdıra bilib.

Məmməd Namaz səhifəsi

Məmməd Namaz uşaqlar üçün çox maraqlı əsərlər yazır. Onun imzası uşaq ədəbiyyatında çoxdan vətəndaşlıq pasportu alıb. Uzun illər gənclik nəşriyyatında redaktor işləyib. İndi harada işləyir bilmirəm, amma onun əbədi bir iş yeri var, uşaq şeri yazmaq.

Məqam: Nağıllarımız səhnələşdirilib disklərə köçürülməlidir. Bazi uşaqlar ola bilsin ki, indi kitabı qəbul etmir. Biz bunu uşaqlara hansısa formada təqdim etməyin yolunu tapmalıyıq. Uşaqlann oynamaq istədiyi oyunlara uşaq ədəbiyyatını qatmalıyıq. Tədris müəssisələrində kompyuterlərə cizgi filmləri, uşaq ədəbiyyatımızın nümunələri yüklənməlidir. Elə "Məlikməmməd" nağılından bir oyun düzəltmək olar. Bəlkə uşaq ədəbiyyatı kitab formasında yox, kino, tamaşa şəklində uşaqlann yanına gəlməlidi.

Adil Cəmil səhifəsi

Adil Cəmili ilk dəfə bu misrasından tanıdım. "Ağaclar torpağın azadlığıdır"..Ənənəvi şeirlər yazıb həmişə. Gözəl də yazıb. Adil Cəmil fikir şairidir. Hisslər, emosiyalar heca şeirinin qəlibinə salınır. Burda qanun-qaydalar hökmrandı. "Ədəbiyyat qəzeti"ndə bu yaxınlarda yeni bir şerini oxudum. "Təzə öyrəşirkən "ata" sözünə, "Baba" deyənin də bu yandan çıxır." Bəli, dünyaya nəvə gəldi. Demək, dünyaya yeni janr gəldi. "Göbələk" şerinə diqqət yetirək.

Göbələk həsrəti

Ay Ayaz,
Gəl bu yaz
Götürək
Səbəti,
Çağıraq
Səmədi,
Toplayaq
Göbələk.
Çox yığsaq
Gəl bölək.
Az yığsaq
Neyləyək?..

Aləmzər Əlizadə səhifəsi

Gəncədə yaşayan tanınmış uşaq şairimiz Aləmzər Əlizadənin ötən il 60 yaşını həmin bu Natəvan klubunda qeyd elədik. Şairin son beş ildə "Fələk və mən", "Son çiçək" kitabları işıq üzü görüb. "Toya gecikən tülkü" pyesi bu il Gəncə Dövlət Kukla Teatrında tamaşaya qoyulub. Xatırladaq ki, indiyə kimi Aləmzər Əlizadənin 4 pyesi səhnələşdirilib. Şairin şeirlərinin dili çox zəngindir. Ən çiçəklərdən bal çəkən kimi şeirlərin dili xalq dilindən, xalq təfəkkründən qaynaqlanıb.

Sarı top

Tək bir əlimə sığır
Balaca, sarı topum.
Yerə vuranda qalır
Məndən yuxarı topum.

Haşiya: Nənəm həmişə sacda yuxa bişirəndə sonuncu yuxanı bizə fəsəli bişirərdi, biz də dövrə vurub oturardıq sacın başında. Nənəm qaşıqla fəsənin üstünə yağ tökərdi. Tökdukcə də oxlovla fəsənlin ustunü deşərdi ki, yağ axıb getməsin. Oxlovu vurduqca deyərdi:

Dən, dən, dən altı,
Meşədəki qaraltı.
İnanmırsan gəl sayaq,
On altıdı, on altı.

Bu, bizim ilk uşaq şerimiz idi. Bu şeirlərdə təkrirlər güclü və canlı idi.

Samovanım qızıldan, qızıldan,
Suyu yere sızıldan, sızıldan.
Qardaşım bir qız sevib, qız sevib -
Qabaq dişi qızıldan, qızıldan.

Uşaq vaxtı biz açıq-qapalı hecalar kimi atılıb düşə-düşə bu şeirləri həvəslə oxuyardıq.

Abbas Səhhət də "Quşlar" şerində bu ritmdən sanamalardan, yəni təkərləmələr janrından istifadə etmişdir:

Quşlar, quşlar, a quşlar...

A.Şaiqin "Dovşan" şerinə diqqət edin:

Dovşan, dovşan, a dovşan...

M. Ə. Sabirin "Yaz günləri" şerinə baxın:

Gəl, gəl, a yaz günləri.

"Cücələrim" şerinə fikir verin:

Cip-cip cücələrim,
Tükü ipək cücələrim.

Cücələr həm çağrılır, həm də sananır.

Bunları deməkdə məqsədim odur ki, müasir uşaq ədəbiyyatımız folklora, xüsusən uşaq folkloruna müraciət etməlidir. Yazıçı üçün ən dəqiq kompas şifahi xalq ədəbiyyatıdır.

Həyacan təbili. Uşaq yazıçıları öz oxucularını yetişdirməlidir. Əgər bu gün Kukla teatrının tamaşaçısı yoxdursa, sabah Azdramanın tamaşaçısı olmayacaq, bu gün "Göyərçin" jurnalının oxucusu yoxdursa, sabah "Azərbaycan" jurnalının oxucusu yoxdur.

İslam Sadıq abzası

İslam Sadıq el-oba, dağ-dərə şairidir. Qoşmadan, gəraylıdan başlanğıc götürüb. Şeir dili xalqın təfəkküründən süzülüb gəlir. Uşaqlar üçün yazdığı "Şümal" poeması məni kovrəltdi. Kənndə yaşadığım günlər yadıma düşdü. Şümal camış adıdır. Kənddə sovet vaxtı malları etliyə verirdilər. Yerli hökumət mal-qaranı camaatdan alıb kəsir, ət məhsullarına çevirdi. Belə bir hadisə Şümalın da başına gəlir.

Bir gün kənddən etliyə
Naxır-naxır mal getdi.
Bizim də qapımızdan
Ayrılıb Şümal getdi.

Onu qoşdum naxıra,
Geri dönüb ağladı.
Mənim uşaq qəlbimi
Dağım-dağım dağladı.

Şümal camış olsa da,
Bircə dili yoxuydu,
Onun hissi, duyğusu
Bizimkindən çoxuydu.

Sevinc Nuruqızı səhifəsi

Son dövr uşaq ədəbiyyatının inkişafında Sevinc Nuruqızının zəhməti çox böyükdür. O, bütün həyatını uşaq ədəbiyyatına bağlayıb. 2006-cı ilin yanvarından "Cırtdan" və "Ümid" uşaq jurnallarının yaradıcı heyətinin direktoru, eyni zamanda İctimai radionun efirində həftənin altı günü canlı yayımlanan "Çoxbilmiş" adlı uşaq verilişinin redaktoru və aparıcısı olub. Hazırda "Təhsil" nəşriyyat poliqrafiya müəssisəsində böyük redaktor kimi fəaliyyət göstərir.

Qarabağ ağnlan, müharibənin gətirdiyi dəhşətlər, əsir soydaşlınımızın işgəncə dolu həyatına həsr edilmiş "Qisas" adlı pyesi Ə. Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrının, "Gəlinciklər" adlı pyesi Salyan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulub.

Sevinc Nuruqızının son beş ildə Azərbaycan dilində 19, rus dilində 6, ingilis dilində 3 kitabı çap olunub. Birinci siniflər üçün 3 qiymətləndirmə testi işıq üzü görüb. "Dədə Qorqud" dastanını uşaqlar üçün işləyib Azərbaycan, rus və ingiliis dillərində çap etdirib.

Müəllifin ən irihəcmli kitabı "Bapbalaca əlifba" adlanır.

Kitabda müəlif əsasən səs və hərfləri uşaqlara əyləncəli və vizual üsulla çatdırır. Kitaba daxil olan şeirlərin əksəriyyətini təbli, uşaqlarda maraq doğuran bir yumor tamamlayır.

Sevinc Nuruqızının məktəbədər yaşlı uşaqlar üçün yazdığı nəsr əsərləri - "Ağca və Cubbulu" hekayəsi,"San qız, Dız və Vız", "İpəkcənin macəraları", "Çiya ilə iki gün" kimi nağılpovestləri, "Çərpələng", "Bapbalaca əlifba" və "Xortumlu dağ" kitabları balaca oxucular tərəfindən maraqla qarşılanıb. Cavabı "Qayçı" olan tapmacaya fikir verək:

Üz-üzədir iki bıçaq,
İkisi də eşi qoçaq.
Neyi versən, kəsər onlar,
Kəsməsələr, küsər onlar.

Gülzar Nənə səhifəsi

Gülzar İbrahimovanın 30 adda kitabı 100 min tirajla çap edilib, kiçik oxuculara çatdırılıb.

Uşaqlara maraqlı olsun deyə, cavan vaxtından "Gülzar nənə" təxəllüsünü götürüb. Bu ad altında uşaqlar üçün yazmağı uğurla nəticələnib. Axı uşaqlar həqiqətən də nağılları baba və nənələrdən eşidəndə onlar üçün daha maraqlı olur.

Professor Qara Namazovun müəllifi olduğu Bakı Dövlət Universitetinin Uşaq ədəbiyyatı dərsliyində Gülzar xanımın yaradıcılığı geniş yer alıb. 6 ildir ki, "Bala dili", "Elli" və "Boya" jurnallarında baş redaktor vəzifəsində işləyir.

Yazıçı nağılda baş verən hər hadisəyə xüsusi rəsm çəkdirib.

Səsli nağıllar isə həm oxuya bilməyən, həm də adi nağılsevən uşaqlar üçün nəzərdə tutulub.

Hazırda müəllifin ibtidai siniflər üçün "1001 nağıl" adı altında 10 cildlik kitabının 2 cildi çapdan çıxıb, 3-cü cild isə çapa hazırdır.

Sərvaz Hüseynoğlu abzası

Sərvaz Hüseynoğlu keçən il 50 illik yubileyinə hesabat kimi çap etdirdiyi "Məmməd Araz dastanı" kitabına uşaq şeirləri silsiləsini də daxil edib:

Quşlar həvəslə saldı
Uçdum... daş kimi...

Və yaxud:

Ah, açılan sirr -
Beləyin çətin qurıyar.

Böyüklər üçün yazılan bu misralarda şair fikrini nə qədər yığcam, dəqiq, poetik ifadə edirsə, uşaqlar üçün yazdığı şeirlərində də öz poetik üslubuna o qədər sadiqdir.

Yer qalmayıbdı
Azğın sellərə;
Ağzına qədər
Gülle-çiçəklə
Doludu dərə.

Və yaxud:

Aşdı-daşdı gül-çiçək,
İçində itdi dibçək -

misraları bu dediklərimizin təsdiqidir. Onun

Düşüb elə-ayağa
Ani ələ qaynaşır.
Qızım deyir: - Ay ata,
Deyən axı bal daşır -

misraları da çox təbii müşahidənin poetik məhsuludur.

Nə gözəl olar
Güle-güle sən
Güneş tək qalxıb
Enə biləsən -

misraları da Sərvazın uşaq şeirlərinin səmimi, oxunaqlı və yaddaqalan dünyasını ortaya qoyur.

Bu günlərdə Azərbaycan Uşaq antologiyası üçün şair və yazıçılarımıza müraciət etdim ki, yazılarını versinlər. Bu axtarışda tanınmış yazıçı E.Hüseynbəylinin uşaqlara həsr olunmuş və Marşakdan iqtibas etdiyi "Dəcəl siçan" nağılpoeması, Qulu Ağəsən yeni uşaq şeirləri tapıldı. Bu şeirlər obrazlı olmaqla bərabər, həm də özlərində əhvalatçılıq, hadisəçilik məqamlarını daşıdığına, yəni oxunaqlı olduğuna görə məni sevindirdi.

Sabirabadda qaçqın şəhərciyində yaşayan 60 yaşlı şairimiz Əziz Musanın "Töfiqənin nağması", Çiçək yağışı", Şəfəq Sahibinin "Biçilmiş çiçəklər", Münəvər Tabdıqovanın "Günəşanaqnur", Rəfiqə Məmmədovanın "Dostluq", "Ardımca gel", "Gülü kəpənəkli bağ", "Nəcbik duyğusu", genc yazıçı Reyhan Yusifqizinin "Yaşıl gözlü qız" kitabları nəşr olunub. Bu illərdə Zəminə Xınalının "Ağ atlı oğlan", "Əmirxan əsgər gedir", Telman Dəmirin "Arzudan əməllərə" pyeslərі çap edilidi və səhnələşdirildi. Borçalıdan Məhsəti Əliqızı, Lənkərandan Əhməd Haqsever, Naxçıvandan İbrahim Yusifoğlu, Təbrizdən Səyid Heydər Boyat, Səttar Mahmudoğlu, Məlihə Əzizpur, Almaniyada yaşayan Simax Şeyda ötən beş il ərzində dövri mətbuatda maraqlı uşaq şeirləri ilə çıxış etdilər.

Simax Şeyda yəhudi şairidir, Azərbaycan dilində uşaq şeirləri yazır, eyni zamanda Azərbaycan şairlərinin şeirlərini yəhudi dilinə çevirir və son illər yəhudi dilində Azərbaycan uşaq ədəbiyyatı antologiyasını çap etdirib.

Tofiq Ağayev rus dilində uşaq şeirləri yazmaqla bərabər son vaxtlar uşaq şairlərimizin əsərlərini rus dilinə çevirib.

Şəfəq Sahibli abzası

Şəfəq Sahiblinin son beş ildə ölkəmizdə və Türkiyədə bir neçə şeir kitabı çap olunub. Onun uşaqlar üçün yazdığı şeirlər bədii lövhələrdən ibarətdir. O, bu lovhələri şeirə şəkil kimi gətirir:

Kəpənəyin dalınca
Dəcəl Sevinc qaçırdı:
Kəpənək zəri ilə
Ona cığır açırdı.

Kəpənəyin zərinin cığıra bənzədilməsi və həmin cığırla Sevincin arnın dalınca getməsi çox maraqlıdır.

Gülarə Munis səhifəsi

Gülarə Munis 2008-2010-cu illərdə "Hanı toplanın topu", "Söylə mənə, ay nənə" "Gizlənmişəm, tap məni", "Müdrik zeytun ağacı", "Göydən alma düşmədi", və "Lalə gülünün sirri" kitablarını uşaqların ixtiyarına verdi.

Təhsil Nazirliyinin təklifi ilə 2009-cu ildən onun "Danışan hərflər" adlı şeri ikinci siniflər üçün Azərbaycan dili iş dəftərinə daxil edilib.

Müəlif 2010-cu ildə İranın Urmiya şəhərində keçirilən şeir festivalında diplom və pul mükafatına layiq görülüb. Gülarə Munisin rəqəmlər haqqında yazdığı şeirlər diqqətimi xüsusilə cəlb etdi. Müəlif bu şeirlərdə rəqəmlərin xarici görünüşünə gorə onları mənalandırıb.

Eyvaz Zeynalov abzası

Eyvaz Zeynalov 2007-ci ildə "Avropa nəşr mətbu evi"nin keçirdiyi müsabiqədə "Ən yaxşı vətənpərvər yazıçı" Beynəlxalq qızıl mükafatına layiq görülmüş, 2008-ci ildə Mahmud Kaşğari adına "Beynəlxalq hekayə", 2010-cu ilde Azadlıq radiosunun "Ədəbi azadlıq" kiçik hekayə müsabiqəsinin qalibi olub.

2007-ci ilde çap olunan "Qırmızı almalar" kitabına uşaq hekayələri və nağılları toplanıb. 2010-cu ilde isə Tiflisdə iki dildə - Azərbaycan və gürcü dilində "Uşaq hekayələri və nağıllar" kitabı çap olunub.

Bir neçə uşaq hekayəsi rus dilində Rusiyada, Ukraynada, Türkiyə türkcəsində Türkiyədə, polyak dilində Polşada çap olunub.

Dərsliklər səhifəsi

İbtidai sinif dərsliklərinin bəziləri zamanın tələbləri ilə ayaqlaşmır. Dərsliklərə elə müəlliflərin əsərləri salınıb ki, o müəlliflərin adını mən birinci dəfə eşidirəm.

2009-cu ilda çap olunmuş və hal-hazırda istifadə olunan 1-ci sinif ana dili dərsliyində bəzi mətnlərə nəzər salaq. Uşaqlar hərfləri öyrəndikdən sonra birdən-birə aşağıdakı şeirlə tanış olurlar. "Əlifbam" şerində: (səh. 84) "Mənə çiçəklərin bəxşımla dərərəm". Mənə çiçəklər nə deməkdir, bəxşla o çiçəkləri necə dərmək olar? Hərfləri yeni öyrənən uşaq bu şeri anlaya bilərmi? Yenə həmin dərslikdə (səh. 105) "Atam evə gələndə, elə bil ki, nur saçır". Nur saçmaq ən çox anaya aiddir. Yenə həmin dərslikdə (səh. 129) "Qurban bayramı" şerinə diqqət yetirək.

Yaradan qəlbimizə
İlahi nur ələsin.
Verdiyimiz qurbanı
Allah qəbul eləsin.

Şerin bədiiliyi o yana dursun, verdiyimiz qurban olmaz, kəsdiyimiz qurban olar. Qurban vermək insana aiddir, kəsilmək qoyuna.

Nuroddin Kazımovun və hal-hazırda istifadə olunan 4-cü sinfin oxu kitabında Nazir Məcnunun "Qadın əlləri" şerinin baxın.

Ay qadın əlləri, parça üstünə
Nə ince naxışlar salırsınız siz.
Şimşək olursunuz uca dağlardan
Nə vaxt ki, daşlan endirirsiniz.

Bu şeirdə nə deyilir, necə deyilir hər şey gözönündədir. Sadəcə uşaqlardan üzr istəmək lazımdır. Yenə həmin dərslikdə Eldar İbrahimin "Şəhidlər" şerindəki misralara nəzər salaq.

Cənazələr yol gedir
Bir-birinden qüdrətli
Güclü çiyinlər üstə.

Qüdrət çiyinə aid ola bilməz. Qüdrət mənəvi varlığa aiddir.

3-cü sinfin Azərbaycan dili iş dəftərində verilən aşağıdakı şeirdə heç nə anlamadım.

Zahiddən soruşdular
Ev niyə bu gündədi?
Qapı çxıb yerinden
Pərdə kündə-kündədir.

Burada uşaqlara hansı düyğuların aşılanması bir yana, pərdənin kündə-kündə olmasını anlaya bilmədim.

Misallar çoxdur. Ona görə də dərsliklərimiz Təhsil Nazirliyinin, Yazıçılar Birliyinin və savadlı pedaqoqlarımızın birgə əməyinin məhsulu olmalıdır.

Uşaq ədəbi tənqidi səhifəsi

Son beş ildə tanınmış alim Fizuli Əsgərlinin uşaq ədəbiyyatı ilə bağlı "Bədii təhlil və ədəbi tənqid", "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları" "Bədii tərcümə məsələləri", "Ədəbi düşüncələr", Zahid Xəlilin yaradıcılığı haqqında "Ömrün sözü, sözün ömrü" və tərtib etdiyi "Zahid Xəlilin sənət dünyası" kitabları və 2007, 2009, 2011 ci illərdə Zahid Xəlilla birgə yazdığı ali məktəblər üçün "Uşaq ədəbiyyatı" dərsliklərı işıq üzü gördü.

Genc tədqiqatçı Aysel Xəlil "Uşaq yazıçısı Qəşəm İsabəyli" kitabında təkçə Qəşəm İsabəylinin yaradıcılığını deyil, müasir uşaq ədəbiyyatımızın problemləri bərədə maraqlı təhlillər aparıb.

Akademik Bəkir Nəbiyevin Xanımana Əlibəyli 90 illiyi haqqında yazdığı "Şerimizin Xanımanası" məqaləsində müasir uşaq ədəbiyyatının alatoron görüntülərinə aydınlıq gətirdi.

Son beş ilde professor Qara Namazovun 3 cilddə "Azərbaycan uşaq ədəbiyyatı antologiyası" və ali məktəblərdə "Uşaq ədəbiyyatı" dərsliyi, tənqidçi, filologiya elmləri doktoru Vaqif Yusifilin Gülzar İbarahimova haqqında yazdığı "Müasir nağıllar" və İlyas Tapdığın uşaq dünyasına həsr etdiyi "Bu, İlyas Tapdıqdır" yazısı müasir uşaq ədəbi tənqidinin yadda qalan səhifələrindən hesab oluna bilər.

Təşəbbüs: Ötən il Azərbaycan Dillər Universitetinin ingilis dili fakültəsində tələbələrin açıq dərslərinin biri Zahid Xəlil və Rafiq Yusifoğlunun yaradıcılığına həsr olunub. Dərsdə şairlər də iştirak edib... Sonra dərsin təhlili apanlıb. Mənca, bu cox vacib bir dərs formuldur, Təhsil Nazirliyi bu cur vasitələrdən geniş istifadə edə bilər. Daha maraqlı bir məqam, universitetlərimizin ədəbiyyat fakültələrində ayda bir dəfə Anann, Fikrət Qocanın, Çingiz Abdullayevin, İntiqam Qasımzadənin, Rəşad Məcidin, Qulu Ağəsən Elçin Hüseynbəylinin, Vaqif Yusifilinin, Mahirə Abdullanın, Elxan Zalin və Səlim Babullaoğlunun dərs aparmaları tələbələr üçün həm əyani vasitə olar, həm də mövzular yetərincə öyrənilər. Təhsil Nazirliyi və universitet rektorları bu məsələni təhsilimizin xeyrinə həll etsələr yaxşı olar.

Uşaq mətbuatı səhifəsi

Son beş ildə "Göyərçin", "Göy qurşağı" "Yuva", "Elli", "Bala dili", "Boya" "Bahar", "Arzu" "Herba Flora", "Güneş" Sehirli xalat","Ailəm" jurnalları, "Savalan", "Şəkər villası", "Tonqal", "Tumurcuq" qəzetləri maraqlı uşaq əsərləri dərc etdi. "Təhsil", "Altun" və "Beşik" nəşriyyatları maraqlı uşaq kitabları ilə uşaqları sevindirdi.

Bakı, Naxçıvan, Gəncə, Salyan Dövlət Kukla teatrlarları, Naxçıvan Dövlət Uşaq Teatrı, habelə, "Bakı", "Günay", "Çiçəyim", Təbəssüm", "Körpəm" uşaq teatrları öz səhnələrini körpə balalarımızın üzünə böyük məhəbbətlə açdı. Amma bəzi uşaq teatrlarının repertuarı zəif, bəsit, həvəskar təsiri bağışlayır. Yaxşı olardı ki, bu teatrlar bizim tanınmış yazıçılarımıza müraciət etsinlər.

Dövlətdən maliyyələşən uşaq təşkilatları demək olar ki, uşaq ədəbiyyatına heç bir köməklik göstərmirlər.

Təkcə Respublika Uşaq Təşkilatının sədri, millət vəkili Gülər Əhmədova uşaq ədəbiyyatına "Mərkəz" qəzetində həftədə bir səhifə yer ayrılmasına köməklik göstərdi. Bu səhifə balaca oxucular tərəfindən maraqla qarşılandı.

Uşaq ədəbiyyatı təkcə Yazıçılar Birliyinin deyil, hamınındı. Respubilkamızda çoxlu uşaq təşkilatları var. Hətta ədəbiyyata dəxli olmayan şəxslər nə qədər ədəbi dərnəklər qeydiyyatdan keçiriblər. Bütün ədəbi, bədii, ictimai uşaq təşkilatları uşağa qayğını ancaq ona sirniyyat vermək, qabağında oynamaq və oynatmaq kimi başa düşürlər. Lap yüzüncü məsələdə də uşaq ədəbiyyatı onların yadına düşmür, Yaxşı olardı ki, uşaqların kökələrinin yanında kökəsi və kukulası haqqında şeirləri də olaydı. Şadlıq saraylarında rəqs edən balaca qızların və küçələrdə maşınları yuyan, təkərlərini qaraldan oğlan uşaqlarının şeirləri də olsa. Onların sinif jurnallarının arxasındakı yazı 8^a sinif jurnalının arxasındakı yazı ilə eyni kökdəndir.

Problem: Yüz ildir ki, uşaq şerimzdəki obrazlar eynidir. Uşaq həmin uşaq, ayı həmin ayı, tülkü həmin tülküdür. Bioloji mənada ayı həmin ayı, tülkü həmin tülkü ola bilər, bu düz, amma bunların filologiyasının dəyişməsi təbidir. Mən hələ bunu yetərincə müasir uşaq ədəbiyyatımızda görmürəm.

Uşaq ədəbiyyatımıza ictimai və sosial məzmun öz erazisini genişləndirmelidir.

Uşaq ədəbiyyatımızın fəlsəfəsi, dili inkişaf etməli, uşaq şeri uşaq folkloruna söykənməlidir.

Uşaq ədəbiyyatı uşaq yerinə qoyulmamalıdır.

Qədim yurd yerlərimizin, şəhidlərimizin, milli qəhrəmanlarımızın obrazlarını uşaq ədəbiyyatında daha da canlandırmalıyıq.

Uşaq şerimizdə bir şeyi aydın etmək çox çətindir. Şerin ab-havasından bilmək olmur ki, bu şeir 80-ci ilndir, yoxsa 2011-ci ilin. Yeni 2011-ci ildə uşaq ədəbiyyatının dayandığı yeri, səviyyəni təyin etmək mənə çətin gəldi. Yaşlı nəsil ədəbiyyatında bu fərqi görmək mümkündür. Şeir öz zamanına oxşamalı və bütün dövrlərdə oz bədiiliyini qoruyub saxlamalıdır. Bəlkə sərbəst uşaq şerinə gəniş yer verməliyik. Bəlkə modern uşaq şeri yaranmalıdır. Bu barədə düşünməyə dəyər.

Göstərdiyim nöqsanlarla bərabər, çox ümidliyəm ki, gözəl uşaq ədəbiyyatımız yaranıb və yenisi də yaranır. Uşaq yazıçılarımız 12-ci qurultaya anı açıq, üzü ağ gedirlər. Bunu misallarda da gördünüz. Uşaq şairini qorumaq lazımdır. Uşaq şairi hər zaman yaranmır. Gərək anadan uşaq şairi doğulasan.

Vərəqi dəyişmək vaxtıdır, əgər dəyişməsəm, vaxt onu elimdən vurub salacaq.

Sonuncu səhifə

Epilog: İndi əlimdə bir ağ vərəq qalıb, bir işıq vərəq, sözləri yoxdur bu vərəqin, ancaq eləcə işıqdı. Işıq olan yerdə həyat var, həyat olan yerdə arzu. Bir arzumuz var: Anar müəllim, Azərbaycan Yazıçılar Birliyinin aylıq uşaq jurnalının nəşrinə böyük əhtiyac var, bizə kömək edin. Respublikamızda mətəbər uşaq jurnalı yoxdur. Bu ağrılğı və ağrını ancaq Yazıçılar Birliyi çəkə bilər. Bu arzunun gerçəkləşməsi naminə bu işıqlı vərəqi 8^a sinif jurnalının üstünə astaca qoyuram. Qoy bu ağ vərəq şəhid uşaqlarımızın ən mükəmməl şeri olsun!

Qəşəm NƏCƏFZADƏ